yyat
ƏTİ
çıxır www.ayb.az Qiymәti 40 qәpik

# Əli bәy Hüseynzadәnin ermәnilәrә müraciәti

*Yüksәlin! Qonşular, yüksәlin! Dar bir milliyyәt, bir nasiyonalizmә dairәsindәn dışarı çıxınız!..*

*Millәtinizi zәlalәtә düçar etmәyiniz... Şekspirlәrin, Hötelәrin, Heynelәrin, Jan-Jak Russoların, Lasalların, Marksların, Tolstoyların üstünlüklәri, qәdir-qiymәtlәri yüksәlib milliyyәt xaricinә çıxdıqları üçün, millәt fәrqi qoymadan ümum bәşәriyyәtin, insaniyyәtin xeyirxahı olduqları üçündür... Bir işıq yüksәldikcә, yuxarılara çıxdıqca, o nisbәtdә uzaqları aydınladar. Odur ki, bütün alәmә işıq vә hәrarәt verәn günәş әn uca, әn yüksәk bir nöqtәdәdir. Bu gün bu qәdәr elm vә maarifinizlә, sәrvәt vә zәnginliyinizlә bәrabәr içinizdәn nәinki ümum insaniyyәtә, hәtta bir-iki qonşularınıza fayda verәcәk bir insan yetişmәdi!.. İçinizdә nә bir Əbu Əli Sina, nә bir Mövlana Rumi, nә bir Uluğ bәy göstәrәmәzsiniz! İki minillik tarixinizi qarışdırsanız yenә göstәrәmәzsiniz! Əflatunlar, Ərәstunlar, Homerlәr yetişdirәn yunanilәrә, Musalar, İsalar, Spinozlar, Heynelәr, Lasallar yetişdirәn yәhudilәrә heç bir vәchlә bәnzәrliyiniz yoxdur! Yüksәlmәdikcә, әxlaqınızı tәmizlәmәdikcә milliyyәt, xәyalәt mәnasızlığını beyninizdәn çıxarıb atmadıqca, ümum bәşәriyyәtә, insaniyyәtә İsalar, Mәhәmmәdlәr, Buddalar kibi bir nәzәrlә baxmadıqca, onlara bәnzәyә bilmәzsiniz, bir yoxluq, heçlik uçurumuna düşüb gedәrsiniz!..*

*1905*

